## *PEDAQOGİKA*

**UOT:372.0:002**

# CƏBR FƏNNİNİN E-TƏLİM VASİTƏSİ İLƏ TƏDRİSİNİN METODOLOJİ PROBLEMLƏRİ

***Aslanova Natiqə  Şikar qızı***
***Gəncə Dövlət Universiteti***
***Natiga.cabbarova@mail.ru***

**Xülasə:** *Məqalədə elektron təlimin vasitəsi ilə cəbr fənninin tədrisinin metodoloji məsələləri tədqiq olunur. Araşdırmalar göstərir ki, tələbə ilə müəllimin E-təlim zamanı bilavasitə ünsiyyətinin olmaması son  naticədə tələbə üçün müəyyən  problemlər törədə  bilər. Bu problemlərin bir hissəsi hazır internet resurslsrında konkret tələbə kontingentinin elmi-metodiki tələblərinin ödənəbilməməsi ola bilər.  Bu ənənəvi təhsilə nisbətən müəllimin daha artıq dərəcədə professional hazırlığa malik olmasını tələb edir.*

**Açar sözlər**: pedaqoji və psixoloji aspekt, metodologiya, informasiya texnologiyaları, e-təlim, ünsiyyət vasitələri

**Key words**: pedagogical and psychological aspect, methodology, computer algebra, information technologies, e-teaching, tools of comunication

**Ключевые слова**: педагогический и психологический аспект, методоло-гия, информационные технологии, э-обучение, средства общения

Azərbaycanda ali təhsilin qarşısında duran əsas məsələlərdən biri günün tələblərinə cavab verən təlim texnologiyalarına yiyələnmiş yüksək ixtisaslı pedagoji kadrların hazırlanmasından ibarətdir. Təlim prosesinin müvəffəqiyyətli təşkili üçün ən vacib şərt təlimin yüksək keyfiyyətini təmin etməkdən ibarətdir. Müasir dövrdə bu tələblərə cavab verən təlim texnologiyası kimi elektron təlimin (qısaca e-təlim) psixoloji, pedaqojivə metodoloji xüsusiyyətlərinin öyrənilməsi zəruridir.

E-təlimin tətbiqi ilə bağlı vacib olan əsas tələblər bunlardır: informasiya resurslarının əlçatan olması, elmi informasiyanın bitkinliyinin və effektivliyinin təmin olunması; müasir informasiya texnologiyalarının tətbiqi; yerli şəbəkənin olması; tələbələrin təlimi lazımi səviyyədə qavramaları üçün oxu zalında istifadəyə verilən ədəbiyyatın kifayət qədər sayı, iş terminallarının kifayət qədər olması, İnternetə giriş ilə (virtual) kompüter laboratoriyalarından istifadənin düzgün təşkili; pedaqoji personalın komplektləşdirilməsi, elmi kitabxanaların istinad informasiyası elektron fondları ilə təmin olunması və s.

İnformasiya və kommunikasiya texnologiyalarının gündəlik həyatımıza durmadan genişlənən nüfuzu tədrisin bütün pillələrində müxtəlif fənlərin tədrisində daha effektiv üsulların meydana gəlməsinə səbəb olmuşdur. İnteraktiv təlim üsulunun kompüterlərdən istifadə edilməklə həyata keçirilməsi tədris prosesini daha da səmərəli etmişdir.

E-təlimin çox da uzaq keçmişlərə yönəlməyən tarixindən məlumdur ki, kompüterlərdən istifadə əyaniliyin daha yüksək səviyyədə həyata keçirilməsini tələb edən həndəsə fənninin tədrisindən başlanmışdır. Fəza fiqurlarının kəsiklərinin qurulması fəza təsəvvürlərinin inkişaf etdirilməsinə kömək edir. Kompüterlərin daha mükəmməl nəsillərinin meydana gəlməsi, hesablama sürətinin böyük dərəcədə yüksəlməsi onların riyaziyyatın və digər təbiət elmlərinin qarşısında duran məsələlərin həllində geniş istifadə olunmasına təkan verdi. Əvvəllər mümükün olmayan məsələlərin müasir dövrdə kompüter vasitəsi ilə həlli artıq mümükün

olmuşdur. Müasir dövrdə elə sahələr vardır ki, onların inkişafını kompüterlərsiz təsəvvür etmək belə mümükün deyil.

İlkin olaraq e-təlimin elementləri bəzi universitet və özəl institutlarda qismən tətbiq olunmağa başlanmışdı və bu imkana ancaq iqtisadi cəhətdən güclü universitetlər malik idi. E-təlim bir tədris texnologiyası kimi 1990-cı illərdə meydana gəlmişdir. İlkin dövrlərdə bu yeni təlim üsulu əsas etibarı ilə kompakt disklər şəklində təklif olunurdu. Müasir təlim texnologiyası kimi electron tədris 2000-ci illərin əvvəllərindən etibarən yaranmağa başladı. Alətlər panelinə malik olan və internetə çıxışı olan ağıllı lövhələrin meydana gəlməsi e-təlimin imkanlarını xeyli artırdı. Kompact disklərdən fərqli olaraq, dərsin gedişinin istənilən mərhələsində bu və ya digər mövzu üzrə hazır materiallar internetdən qəbul oluna bilərdi. Aparıcı ali məktəblərdə tədricən onlayn təlim texnologiyalarının tətbiqinə başlandı. Sonrakı illərdə onlayn təlim üsulları ilə təhsil alan insanların sayı sürətlə artmağa başladı. Yeni onlayn təhsil alan nəsil formalaşmağa başladı. Bu cür təhsil bir sıra səbəblərdən yaşadığı yeri tərk etmədən və işlədiyi müəssisədə heç bir əlavə problem yaratmadan təhsil ala bilmək imkanı verirdi.

Tədricən e-təlim vasitələri daha aktiv şəkildə təhsilə daxil olmağa başladı. Buna baxmayaraq, bu istiqamətdə nəşr edilən tədqiqatın çoxu, yalnız e-təlimin faydalarından bəhs etməyə üstünlük verirdilər. E-təlim konsepsiyasının yaranması və inkişaf etməsinə səbəb olan əsas faktorlardan biri kimi onun nəzəri əsaslarının yaranması, e-təlimin şəxsi davranış, social və mədəni aspektlərin tədqiqi göstərilə bilər.

Tədricən beynəlxaq şəbəkədə insanların və təhsil müəssisələrinin maraqlarını nəzərə alan, e-təlimin metodoloji problemlərinin öyrənilməsini stimullaşdıran tədqiqatlar yer almağa başladı. Bu cəhətdən E-təlimin öyrədənlə öyrənən arasında şəxsi bilavasitə ünsiyyətin olmaması məhdudiyyəti olsa da, onun bir sıra müsbət imkanları vardır ki, bu da geniş informasiya resurslarına girişin olmasından ibarətdir.

Bunlarla yanaşı yeni təlim formasının pedaqoji və psixolji aspektlərinin də öyrənilməsi bir problem kimi özünü göstərməyə başladı. Təbii olaraq, e-təlim sistemlərinin üstünlükləri və çatışmayan cəhətləri və nöqsanları pedaqoji nöqteyi-nəzərdən daim suallar doğururdu. Tamamilə yeni tədqiqat üsulları meydana gəlməyə başladı. Bu tədqiqatın nəticəsində e-təlimin tədricən təkmilləşdirilməsi təmin olunur. Nəticə etibarı ilə bu, yeni konsepsiyanın meydana gəlməsinə səbəb olmuşdur.

Maarifləndirici sistemlərin əsas funksional vəzifələrindən biri tələbələri social həyata hazırlamaqdır. Bu, ənənəvi təlim texnologiyalarında müəllim kollektivinin nəzarəti altında həyata keçirilir. Lakin e-təlim zamanı tələbələr canlı həyatdan çox virtual aləmlə bağlı olurlar və social həyatdan təcrid olunmuş olurlar. Beləliklə, sosial həyatla, virtual maarifləndirici pedaqoji fəaliyyət arasında korrelyasiya yaranır və buna görə də bu istiqamətdə e-təlim metodikasının qarşısında aradan qaldırılması tələb olunan çətinliklər meydana çıxır [3]. Bu çətinliklərin qismən aradan qaldırılması yolu e-təlim texnologiyaları ilə ənənəvi təlimin müəyyən xüsusiyyətlərinin uzlaşdırılmasından ibarət ola bilər. Müasir dövrdə bir çox məsələlərin həlli müxtəlif elm sahələrinin müştərək şəkildə istifadə olunmasını tələb edir. Bu məqalədə həll olunması nəzərdə tutulan əsas məsələ cəbrin tədrisində e-təlim metodlarının yaradılmasının spesifik problemlərinin müəyyən olunmsı və praktik fəaliyyətdə ondan istifadə olunmasını təmin edən yolların müəyyənləşdirilməsindən ibarərdir.

Kompüterlərdən tədris prosesində istifadə olunması da müasir dövrün tələblə-rindən birinə şevrilmişdir. Cəbri struktuların müxtəlif növlərinin öyrənilməsində kompüter texnologiyaları inkar olunmaz üstünlüklərə malikdirlər. Əvvəllər böyük hesablamalar tələb edən və bu səbəbdən də öyrənilməsi böyük çətinliklər yaradan məsələlərin daha sadə həll

üsulları yaranmışdır. Bu sahədə davamlı inkişafın məntiqi nəticəsi kimi elektron təlim üsulları yaranmışdır.

Müasir riyazi modelləşmə məsələlərində riyaziyyatın bütün sahələrində böyük hesablamalar tələb edən məsələlərin kompüter vasitəsi ilə həlli üçün xüsusi tətbiqi proqramlar hazırlanmışdır. Bu proqramlar bəzən həlli bütün dərs prosesinin belə əhatə edə biləcək qədər uzun sürən məsələlərin qısa zamanda həllini tapmağa kömək edir. Burada yenə də məsələnin qoyuluşundan və dərsin xarakterindən asılı olaraq, bəzən kompüterin köməyindən istifadə edərək məsələni həll etmək, bəzən isə materialın daha dərindən qavranması üçün bəzi hesablamaların əllə yerinə yetirilməsi əlverişli olur.

E-təlimin psixoloji və pedaqoji xüsusiyyətləri ilə bərabər onun metodoloji aspektlərinin də həm təlim və həm də elmi xarakterli mövzuların ali təhsil müəssisələrində tədrisi üçün böyük əhəmiyyəti vardır. Buna görə də müasir dövrdə e-təlim vasitəsi ilə cəbrin ali məktəbdə tədrisi metodikasının qarşısında duran əsas məqsədlərdən biri ali təhsil müəssisələrində və universitetlərdə e-təlimin psixoloji və pedaqoji xüsusiyyətləri ilə yanaşı müxtəlif fənlər üçün e-təlimin əsas xarakteristikalarını öyrənməkdən ibarətdir.

Tədris müəssisələrində e-təlimi ali məktəblərdə təşkil edən və icra edən yüksək ixtisaslı əməkdaşlarının işinin cəbrin tədrisi sahəsində daha da optimallaşdırılmasının nəzəri və praktik əsaslarının öyrənilməsi məhz metodoloji problemlərin müəyyən olunmasını tələb edir. Eyni zamanda təlim prosesində həm tədris olunan fənnin təlim nəticələrinin əldə olunmasına diqqət vermək lazımdır, və həm də bunu elektron təlim üsullarının vasitəsi ilə, yəni İKT vasitələri ilə həyata keçirmək tələb olunur. Bu müəllim üzərinə əlavə məsuliyyət qoyur.

Təcrübə göstərir ki, e-təlim zamanı həm müəllim və həm də tələbənin təlim materialı üzərində işi ənənəvi təhsilə nisbətən artmış olacaqdır. Müəllim üçün bu iş ona görə artmış olacaqdır ki, müəllim informasiyanı yalnız görmə və eşitmə orqanları əsasında deyil, aralıq informasiya ötürücüsü (kompüter, noutbuk, internet şəbəkəsi və s.) vasitəsi ilə həyata keçirir ki, bunun hazırlığı əlavə vaxt və enerji tələb edir. Əlbəttə internet vasitəsi ilə yüksək ixtisaslı kadrlar tərəfindən hazırlanmış hazır tədris materiallarından istifadə olunması müəyyən qədər bu işi yüngülləşdirsə də, tələbələrin qavrama xüsusiyyətləri və onların fərdi keyfiyyətləri əlavə iş saatlarının artmasına səbəb ola bilər. Boloniya prosesinin inkişafı ilə, universitetlər arası təcrübə mübdiləsi gücləndikcə, tələbələrin bu sistemdən istifadə bacarıqları yüksəldikcə və inteqrasiya prosesləri artdıqca bu cür əlavə iş saatlarına ehtiyacın azalması baş verə bilər. Lakin müasir dövrdə bu hələlik imkan xaricindədir.

Müəllimin professional keyfiyyətlərinin yüksəlməsinin vacibliyi aşağıdakı araşdırmalardan aydın olur. İKT texnologiyaları vasitəsi ilə interaktiv dərs aparan müəllimin dərs prosesinin müşahidəsi göstərir ki, müəllim İKT vasitələrinin iş prinsipinə yaxşı yiyələnməklə və hazır təlim materialından istifadə etməklə dərsi yüksək səviyyədə aparacağını düşünürsə, çox bəsit bir çap səhvi bütün işi korlaya və onun öz məqsədinə çata bilməməsinə səbəb ola bilər. Belə çap səhvi tədris olunan fənn materialının aralıq daşıyıcılar dilində yazılması nəticəsində mexaniki baş verə bilər. Belə bir səhvi həddən artıq böyük olan texniki yönümlü mətndə aşkar etmək çətindir. İş prosesində belə bir səhvin olmasını ancaq tədris olunan fənni yüksək peşəkarlıqla bilən müəllin görə bilər. Müşahidə olunmuş səhvin texniki xarakterli proqram mətnində təsbit edərək, onu aradan qaldırmaq isə İKT üzrə yüksək biliklərə malik olan müəllim tərəfindən yerinə yetirilə bilər. Beləliklə, müəllimin effektiv işi onun hər iki fənni yüksək səviyyədə bilməsini tələb edir.

Eyni dərəcədə professionallıq materialın möhkımləndirilməsi zamanı, yəni laboratoriya məşğələlərində tələbələrlə iş zamanı meydana çıxa bilər. Materialın tələbə tərəfindən qavranılması üçün və onun təlim nəticələrində qeyd olunan səriştələrə yiyələnməsi

üçün tələbənin nəzəri materialı dərindən qavraması gərəkdir. Müşahidə göstərir ki, məsələn, cəbrdə kub tənliyin həllinin tədrisi zamanı yalnız Kardano düsturlarının təqdimatın köməyi ilə tələbəyə çatdırmaq və onlayn İnternet sistemlərin köməyi ilə təqdim olunan konkret tənliyin həll olunaraq, kökünün tapılması möhkəm bilik əldə olunmasına yardım edə bilməz. Lakin tələbə sərbəst olaraq kub tənliyin həlli üçün proqram təminatı hazırlayarsa, o nəinki Kardano düsturlarını bilməlidir, habelə onlardan düzgün istifadə üçün lazım olan əlavə biliklərə (kompleks kökalma düsturlarına, Myavr düsturlarına, kompleks ədədlərin triqonometrik formasına, kompleks ədədin arqumentinin düzgün müəyyən olunma qaydalarına və s.) dərindən yiyələnməlidir [4, 6, 8]. Belə biliklər isə yüksək professionallığa malik olan müəllimin rəhbərliyi altında qazanıla bilər.

Müəllimin öz işndə istifadə etdiyi əsas metodlar müşahidə, tədqiqat, arxiv-araşdırma üsulu, tələbə anketinin araşdırılması, tələbələrlə aparılan sorğular və s. kimi metodlardan ibarətdir. Tədqiqatın metodoloji əsası aşağıdakı prinsiplərə söykənir: informasiya texnologiyası sistemli, fəaliyyət yönümlü olmalı, fərdi fəaliyyətin dəstəklənməsinə xidmət etməlidir.

Tədqiqatın elmi yeniliyi ali təhsil müəssisələrində e-təlim vasitəsi ilə cəbrin tədrisi zamanı seçilən təlim üsulunun həlli axtarılan problemlə sıx bağlı olmasının aşkarlanması və təlimin psixoloji və pedaqoji xüsusiyyətlərinin düzgün müəyyən olunmasından ibarətdir. Müasir dövrdə e-təlimin müvəffəqiyyətlə həyata keçirilməsi üçün, bu təlimin müxtəlif alt sistemlərinin həyata keçirilməsini təmin edən təlim sistemləri və onlayn təlim texnologiyalarından istifadə edən üsullar hazırlanmalıdır. E-təlim zamanı onlayn proqram paketləri ilə müəllim yaxud tələbələr tərəfindən hazırlanmış proqram paketlərindən yerində istifadə olunması təlimin keyfiyyətinə təsir göstərən əsas amillərdəndir.

Cəbr fənninin məzmunu və strukturu fənn proqramı ilə müəyyən olunur. Müasir Cəbr kursu üç semestrdə deyilən əsas (məcburi) kurs və seçmə fənlərlə əhatə olunan tamamlayıcı kursdur. Materialın seçilməsi və ona ayrılan saatların planlaşdırılması müəllimdən də asılıdır. Cəbr 1, 2, 3 fənləri cəbr üzrə minimal biliklər sisteminin verilməsini nəzərdə tutur. Seçmə fənlərdə isə Cəbrin əlavə bölmələri və bir sıra tətbiqlər üçün vacib olan mövzuları yer alır. Müasir dövrdə onlayn tətbiq proqramları cəbrin və onunla bağlı bir sıra digər sahələrin ən vacib məsələlərinin demək olar ki, hamısını əhatə edən yeni texnoloğiyalarla zəngindir. Bu proqramların əksəriyyəti onlayn təlim üçün və habelə sərbəst şəkildə öyrənmə və istifadə üçün yararlıdır. Müəllimin burada rolu, əsas etibarı ilə, deyilən kursla bağlı olan bikilər sistemini əldə etmək üçün istiqamətverici və yönəldici qüvvə olmasındadır. Bu rolu layiqincə yerinə yetirmək üçün müəllimlərin həmin tətbiq proqramları və onlarla bağlı olan vasitələri dərindən bilmələri vacibdir.

Cəbr kursu olduqca genişdir və əgər nəzərə alsaq ki, bu fənnin hər bir bölməsi ilə bağlı Sage, Magma kimi İnternet mühitlərində kifayət qədər dolğun material vardır, onda bu kursa aid hansı materialların məhdud zaman çərçivəsində öyrənilməsi məsələsi təlimin effektivliyi üçün vacibdir. Burada onlayn proqramlardan istifadə ilə müəllimin rəhbərliyi altında və onun tərəfindən hazırlanan tədris materialının öyrədilməsi arasında düzgün nisbətin olması vacibdir. Tədris prosesində e-təlim nöqteyi nəzərindən vacib olan mövzularda onlayn proqramlardan istifadə məsələsinə və habelə onlayn proqramların nəinki tədrisdə və habelə buraxılış, kurs və sərbəst işlərin hazırlanmasında faydalı ola biləcək tədqiqat xarakterli materialın öyrənilməsinə geniş yer verilməlidir [5, 7].

Bu istiqamətdə uğurun əldə olunması üçün kompüter cəbri adlanan fənnin tədris olunmasına böyük ehtiyac vardır. Araşdırmalar göstərir yuxarıda deyilən çətinliklərin aradan qaldırılmasında bu fənnin tədrisinə böyük ehtiyac vardır. Müəllif öz araşdırmalarnın

nəticəsini olaraq bu fənnin bütün riyaziyyat və informatika yönümlü ixtisaslarında bu fənnin tədrisinin vacibliyini təklif etmişdir.

Kompüter cəbri fənni kompüterin bilavasitə tədrisə və elmi axtarışlara nüfuz etməsi nəticəsi olaraq, yeni meydana gəlmiş bir fəndir. Bu fənn cəbrin simvollar üzərində əməliiyat qaydalarını yerinə yetirə bilən xüsusi proqramların və sistemlərin vasitəsi ilə ümumi cəbr məsələlərinin həllini təmin edən sistemlər haqqında fəndir. Burada söhbət müəyyən bir məsələnin kompüter vasitəsi ilə təqribi həllindən getmir. Həmin məsələ hesablama riyaziyyatı fənnində öyrənilir. Kompüter cəbrində isə baxılan məsələlər sırf cəbri xarakterdə omaqla dəqiq həllolunur. Məsələn, verilmiş cəbri ifadənin eyniliklə çevrilməsi və onun sadələşdirilməsi cəbri məsələdir və onun kompüter vasitəsi ilə həlli kompüter cəbri fənnində həyata keçirilir [2-3].

Yuxarıda deyildiyi kimi kompüter cəbri fənni yeni fəndir və onun yaranması cəbr və ədədlər nəzəriyyəsində həlli yüzilliklərlə məlum olmayan məsələlərin həllində kompüterlərin uğurlu tətbiqi ilə bağlı olaraq meydana gəlmişdir. Diofant tənliklərinin həlli zamanı bir çox hallarda tənliyin həllinin parametrlərin çox böyük qiymətlərində həlli olmadığı ümumi nəticələrlə isbat olunmuşdur. Lakin bu sərhədlər çox böyük olduğu üçün qalan hallarda həllinolub olmaması məsələsinin müasir kompüterlər vasitəsi ilə belə həlli qeyri-mümkün görünür. Lakin XX əsrin 70-ci illərində LLL alqoritm deyilən olduqca mühüm nəticənin əldə olunması bu istiqamətdə çox uğurlu işlərin görülməsi ilə nəticələndi. Bu alqoritmin mühüm cəhəti onun polinomial vaxt ərzində kompüter köməyi ilə həll verə bilən alqoritminin olması ilə bağlıdır. Bu alqoritm vasitəsi ilə qurulan "gətirilmiş bazis" həllərin sərhədlərini "eksponemsial" olaraq azaltmağa və beləliklə yoxlana bilən həllər sərhədlərini kompüterlə hesablana bilən sərhədlərədək endirməyə imkan verir.

Beləliklə, kompüter cəbri fənninin tədris olunması dövrün tələbidir və tədrisin aktual məsələsidir.

### ***Ədəbiyyat***

1. Зюзьков В. М. Компьютерная алгебра. Издательство Томского университета, 2014.
2. Шилин И.А. Копьютерная алгебра в задачах. Учебное пособие. МПГУ, Мос., 2018.
3. Мараховская Н.В. Психолого-педагогические средства преодоления познавательных барьеров в дистанционном обучении: Диссертация … канд. пед. наук / Брянский гос. пед. ун-т. М., 2003. 127 с.
4. Aslanova N. Sh. On Calculation of Elements of Continued Fractions for Cubic Algebraic Numbers, Journal of Contemporary Applied Mathematics v.10, №1, 2020, p. 10-13.
5. Aslanova N. Sh. On the Number of Lattice Points in the Shifted Circles, Azerbaijan Journal of Mathematics, v. 10, №2, 2020, p. 175-190.
6. Асланова Н. Ш. Методика преподавания темы «кубические уравнения» в университетах средствами электронного обучения, Вестник Черкасского Националь ного Университета им. Б. Хмель-ницкого, серия педагогические науки, №3, 2021, 89-99.
7. Aslanova N. Ş. Cəbri tənliklər mövzusunda Şturm sisteminin e-təlim üçün uyğun olan məsələləri, Pedaqoji Universitetin Xəbərləri, Riyaz. və təbiət elmləri seriyası, c.64, №4, 2021.
8. Асланова Н. Ш. Преподования темы «Кубические уравнения» в университетах средствами электронного обучения, XIV Международная научная конференция «фундаментальные и прикладные проблемы математики и информатики», приуроченная к 90-летию Дагестанского государственного университета, 16-19 сентября, 2021, с. 57-59. Махачкала.

## МЕТОДОЛГИЧЕСКИЕ ПРОБЛЕМЫ ПРЕПОДОВАНИЯ ДИСЦИПЛИНЫ АЛГЕБРА ПРИ ЭЛЕКТРОННОМ ОБУЧЕНИИ

***Асланова Натига Шикар кызы***

***Резюме***

В статье исследуются методологические вопросы преподования предмета алгебры при э-обучении. Исследования показывают, что отсутствие непосредственного контакта между студентами и учителем при э-обучении может порождать некоторые проблемы для студента. Часть этой проблемы может быть обусловлена неудовлетворенностью студентов научно-методическим материалом в ресурсах из интернета.

## METHODOLOGICAL PROBLEMS OF TEACHING OF ALGEBRA BY THE METHODS OF E-TEACHING

***Aslanova Natiga Shikar***

***Summary***

In the paper the methodological aspects of the teaching of algebra is investigated. Studing shows that the results of the e-teaching depends on absence of direct connection between the student and the teacher. Partially this problem is connected with fully absence of demands in scientific and methodological internet resurses. This demands high professional competences for teachers.

***Rəyçi: f.r.e.d.Rövşən Hümbətəliyev***
***Daxil olduğu tarix 16 noyabr 2022-ci il***

**UOT:37.**

## İNGİLİS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ ZAMANI KURS PROQRAMLARININ HAZIRLANMASINDA LÜĞƏT TESTLƏRİNİN ROLU

***p.ü.f.d. Hacıyeva Könül Xanlar qızı***
***Azərbaycan Dillər Universiteti***
***hajiyeva.konul83@gmail.com***

**Xülasə:** *Söz ehtiyatı artıq dil öyrənmə prosesinin vacib bir hissəsinə çevrilmişdir və son illərdə bir sıra tədqiqatlar ümumi dil biliyi ilə söz biliyi arasında sıx əlaqənin olduğunu göstərir. Bu gün artan tendensiya, akademik mühitdə təhsillərini davam etdirmək istəyən tələbələr üçün ingilis dilində ən çox işlənən və akademik sözlərin təqdim olunmasıdır. Tələbələrin dil öyrənmə səmərəliliyini artırmaq məqsədi ilə müxtəlif fənlərə əsaslanan bir çox külliyyatlar yaradılmış və təhlil olunmuşdur. Nəticədə sözlərin işlənmə tezliyinə əsasən müxtəlif növ söz siyahıları tərtib edilmişdir. Bir sıra səbəblərə görə söz siyahılarının tərtib olunması dil öyrənərkən vacibdir. Bu siyahılar adətən müvafiq ixtisaslara uyğun sahədə rast gəlinən sözlərin və ya leksik ifadələrin siyahılarını ehtiva edir.*

**Açar sözlər:** İngilis dilinin xarici dil kimi tədrisi, lüğət testi, tədris planı, kurs proqramı.

**Ключевые слова:** Преподавание английского языка как иностранного, словарный запас, учебный план, программа курса.

**Keywords:** Teaching English as a foreign language, vocabulary test, curriculum, course program